# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat MƏRUZƏSİ

(Əvvəli 3-cü səhifədə).

**Hörmətli toplantı iştirakçıları!**

Hazırda Qəbələ rayonunda 19 turizm istirahət obyekti fəaliyyət göstərir. Onların arasında 5 otel beşulduzludur. Qəbələdə yerləşən mehmanxana tipli obyektlərdə bir gündə 2500-dən artıq turisti qəbul etmək imkanı vardır. Bu ilin birinci rübündə Qəbələyə 12000 nəfərə yaxın turist gəlmişdir.

Rüb ərzində həmçinin, Qəbələyə gələn xarici ölkələrin dövlət rəsmilərinin və xarici turistlərin sayı da əhəmiyyətli dərəcədə artmış, beynəlxalq əlaqələrin qurulması istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Belə ki, yanvar ayında İran İslam Respublikasının Qərbi-Azərbaycan vilayəti valisinin başçılıq etdiyi nümayəndə heyəti, fevral ayında Moldova xarici işlər naziri müavininin başçılıq etdiyi nümayəndə heyəti və mart ayında Koreya Respublikasının Qyonqcu şəhəri merinin başçılıq etdiyi nümayəndə heyəti Qəbələ rayonuna səfər etmişdir.

Qonaqlara Qəbələnin tarixi, mədəni həyatı, burada həyata keçirilən beynəlxalq tədbirlər, idman yarışları dövlət başçılarının zirvə toplantıları, eləcə də bütün istiqamətlərdə əldə edilən uğurlar barədə ətraflı məlumat verilmiş, onlar rayonun aqrar sektoru, yeni yaradılmış emal müəssisələri, turizm infrastukturu ilə tanış olmuşlar.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən 2017-ci ilin 16-19 və 23-26 mart tarixlərində "Ölkəmizi tanıyaq" tur-aksiyası çərçivəsində ölkənin bir sıra rayonlarının məktəbliləri Qəbələyə gəlmişlər.-Qabaqcadan hazırlanmış gəzinti proqramına uyğun olaraq məktəblilər rayonumuzla yaxından tanış edilmişlər. Həmçinin 23-26 mart tarixlərində Qəbələ məktəbliləri də həmin aksiyaya qoşularaq, Gəncə-Şəmkir-Göygöl rayonlarına səfər etmişlər.

**Hörmətli yığıncaq iştirakçıları!**

Qəbələ Rayon Mərkəzi Xəstəxanasında 2017-ci ilin 3 ayı ərzində xəstələrin sayı 660 nəfər, cərrahi əməliyyatların sayı 60 olmuşdur.

Bu dövrdə 286 doğuş baş vermişdir. Ambulator müraciət edən xəstələrin sayı 50606 nəfər olmuşdur.

Cari ilin ötən dövrü ərzində onkoloji xəstələrin sayı 589, ilk dəfə aşkar olunanların sayı 40 nəfər olmuşdur.

Zərifə Əliyeva adına Göz Xəstəlikləri İnstitutunun əməkdaşları səyyar briqada şəklində rayonumuzda olmuş, 22-dən artıq xəstəni müayinə edərək 14 nəfərin gözündə cərrahi əməliyyat aparmışlar.

Obliqat qruplar üzrə məcburi tibbi müayinəyə cəlb edilməsi nəzərdə tutulan 6800 nəfərdən 2017-ci ilin I rübü ərzində 700 nəfər müayinəyə cəlb edilmişdir. Müayinə olunanların 186 nəfəri təhsil, 144 nəfəri səhiyyə işçiləri, 370 nəfəri isə digər sahələrdə çalışanlardır.

Ölkə başçısının tapşırığı əsasında 15 fevral tarixdən respublikada 18 yaşından yuxarı olan əhalinin dispanserizasiyası məqsədilə kütləvi tibbi müayinəsi keçirilir.

Rayonumuzda keçirilən müayinələrin nəticəsinə əsasən 903 nəfər ambulator, 273 nəfər stasionar müalicəyə cəlb edilmiş, 126 nəfər Bakı şəhərindəki ixtisaslaşdırılmış klinikalara göndərilmişdir.

Bu müddət ərzində diaqnostika mərkəzinin konsultativ poliklinika şöbəsinə xəstə gəlişlərinin sayı 5588, endoskopiya kabinetində müayinələrin sayı 470, EKQ müayinələrinin sayı 1065, stomatoloji kabinetdə müalicə edilən xəstələrin sayı 97 nəfər, stasionar şöbəyə daxil olan xəstələrin sayı 259 nəfər, cərrahiyyə əməliyyatlarının sayı 242 olmuşdur. Hemodializ şöbəsində 42 xəstədə 1560 hemodializ seansı aparılmışdır. Şüa-diaqnostika şöbəsində ultrasəs müayinələrinin sayı 4277, kompüter tomoqrafik müayinələrin sayı 375, rentgen müayinələrin sayı 4764, fizioterapiya və tibbi bərpa şöbəsində prosedurların sayı 1970 olmuş və kliniki laboratoriyada 2450 xəstədə 100134 müayinə aparılmışdır.

Rayon gigiyena və epidemiologiya mərkəzi tərəfindən 2017-ci ilin birinci rübü ərzində profilaktik peyvəndlərdən hepatit «B»-ə qarşı 283 peyvənd, göyöskürək, difteriya və tetanusa qarşı 361 peyvənd, qızılca, parotit, məxmərəyə qarşı 727 peyvənd, poliomielitə qarşı 1724 peyvənd, pnevmoniya əleyhinə 881, İPV üzrə 294 peyvənd olunmuşdur.

Profilaktiki peyvəndlərin keyfiyyətli aparılması məqsədilə hər ayın 14-15-i günlərində vahid peyvəndləşmə günü keçirilir.

Rayon gənclər və idman idarəsi tərəfindən 2017-cı ilin ötən dövrü ərzində 19 tədbir həyata keçirilmişdir. Bunlardan 9 tədbir gənclərlə iş sahəsini, 10 tədbir isə kütləvi bədən tərbiyyəsi və idman sahəsini əhatə edir.

Yeniyetmələrin XI Respublika Oyunlarının proqramına daxil olan sərbəst-güləş, boks və cüdo üzrə zona yarışlarının rayon seçim mərhələsi, qol güləşi, stolüstü tennis, kişilər arasında şahmat üzrə rayon birinciliyi, taekvondo idman növü üzrə Qəbələ rayon Açıq Turniri daha yaddaqalan olmuşdur.

Qəbələ Olimpiya İdman Kompleksi MMC öz işini 2017-ci ilin birinci rübündə idmanın inkişaf etdirilməsi, olimpiya hərəkatının genişləndirilməsi, gənclərin müntəzəm şəkildə idmana cəlb olunması, əhalinin bütün təbəqələri arasında sağlam həyat tərzinin formalaşdırılması və s. istiqamətlər üzrə təşkil etmişdir.

2017-ci ilin I rübündə kompleksin xidmətlərindən 354 nəfər-gün istifadə olunmuşdur ki, bir günlük xidmətlərdən istifadə edənlərin orta sayı 194 nəfər təşkil etmişdir. Bir günlük xidmətlərdən istifadə edənlərin 35 nəfəri ödənişli əsasla, 159 nəfəri ödənişsiz əsasla kompleksin xidmətlərindən istifadə etmişlər.

Qəbələ Peşə Məktəbində tədris planına uyğun olaraq fevral ayında 9 buraxılış qrupunda nəzəri fənlərdən daxili imtahanlar keçirilmiş və məktəbin 174 nəfər şagirdi bu imtahanlardan müvəffəq qiymətlər almışdır. Fevralın 18-dək məktəbin buraxılış qruplarının şagirdləri 15 həftəlik istehsalat təcrübəsinə göndərilmişlər. Hazırda məktəbdə 12 qrup üzrə 226 nəfər şagird təhsil alır.

Məlum olduğu kimi rayonda yeni peşə-tədris kompleksinin tikintisi başa çatmaq üzrədir. Bu məqsədlə pilot layihə olaraq, 3 yeni ixtisas- "Aqroservis mütəxəssisi", "Bitkiçilik mütəxəssisi" və "Heyvandarlıq mütəxəssisi" ixtisasları üzrə ümumi orta təhsil bazasından təhsil müddəti 2 il olan qruplara şagird qəbulu aparılmışdır. Həmin ixtisaslar üzrə tədris prosesi Modul Təhsil Proqramları üzrə keçirilir.

Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin əhatə dairəsində olan 12 rayonda fəaliyyət göstərən koordinasiya mərkəzləri ilə mütəmadi əlaqələr yaradılmış və koordinatorlar ümumi işə səfərbər olunmuşdur. 2017-ci ilin 3 ayı ərzində mərkəzlə 24 milli QHT əməkdaşlıq edərək vətəndaş cəmiyyətinin inkişafına xidmət edən layihələr həyata keçirmişlər.

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzində 2017-ci ilin 3 ayı ərzində bir sıra müxtəlif maraqlı tərbirlər təşkil olunmuşdur. Bununla yanaşı mərkəzdə fəaliyyət göstərən toxuculuq, kompüter və dil kurslarından 3 ay ərzində 321 nəfər bəhrələnmişdir.

**Hörmətli iclas iştirakçıları!**

Rayonumuzun aqrar sektorunda 2017-ci ilin məhsulu üçün 21047 hektar sahədə payızlıq dənli bitkilər əkilmişdir ki, onun da 16262 hektarını buğda, 4785 hektarını isə arpa sahələri təşkil edir. Taxıl sahələrindən yüksək məhsul əldə etmək üçün lazımi aqrotexniki tədbirlər həyata keçirilir. Belə ki, 5800 hektar taxıl sahəsi alaq otlarına qarşı dərmanlanmış, 2600 hektar sahədə isə ziyanvericilərə qarşı mübarizə tədbirləri aparılmışdır. 340 nəfər məhsul istehsalçısına güzəştli qaydalarla 1260 ton mineral gübrələr verilmişdir.

Heyvandarlığın yem bazasının möhkəmləndirilməsi üçün taxıl sahələri 1000 hektara qədər azaldılmış və həmin ərazilərdə ot və digər yem bitkilərinin əkini aparılmışdır.

Bu gün meyvəçilik və üzümçülük də önəmli sahələrdən hesab edilir. Hazırda rayonda 6854 hektar bağ sahələri, 509 hektar üzüm plantasiyaları mövcuddur. Həm əhalinin bu məhsullara olan tələbatının, həm də rayonda həmin sahələrin məhsullarını emal edən sənaye müəssisələrinin xammala olan tələbatının ödənilməsi baxımından meyvə və üzüm sahələrinin genişlənməsinə və məhsuldarlığın yüksəldilməsinə diqqət artırılmışdır.

Ölkə başçısının qeyd etdiyi kimi indi kənd təsərrüfatının hər bir sahəsi bizim üçün vacibdir. İxrac yönümlü kənd təsərrüfatı məhsulları istehsalının artırılması diqqət mərkəzində saxlanılmalıdır.

Bu baxımdan fındıqçılığın mühüm əhəmiyyət kəsb etməsini nəzərə alaraq rayonumuzda 2000 hektar yeni fındıq bağlarının salınması planlaşdırılmışdır. Artıq keçən ilin payızından bu istiqamətdə işlərə başlanılmış və cari ilin birinci rübündə də davam etdirilmişdir. Ayrı-ayrı kəndlərdə 900 hektar yeni fındıq bağları salınmışdır.

Uzun fasilədən sonra keçən il rayonumuzda barama istehsalına başlanılmışdır. Bu il təhvil verilərək baramanın hər kiloqramına əlavə olaraq 5 manat subsidiya verilməsi nəzərdə tutulmuşdur. Barama istehsalının artırılması məqsədi ilə 2016-cı ilin payızında və cari ilin birinci rübündə Çin Xalq Respublikasından 20000 ədəd, İran İslam Respublikasından 100.000 ədəd, qonşu rayonlardan 4000 ədəd, Ekologiya və Təbii Sərvətlər Nazirliy xətti ilə 1500 ədəd tut tingləri gətirilərək aqrotexniki qaydalara uyğun əkilmişdir. Bu gələcəkdə bizə barama istehsalının daha da artırılmasına şərait yaradacaqdır.

Rayonda keçən ildən etibarən tütünçülüyün də inkişaf etdirilməsinə başlanılmışdır. 2017-ci ildə kəndlərimizdə 70 hektar sahədə tütün əkilməsi nəzərdə tutulmuş, bu məqsədlə tütün şitilinin yetişdirilməsi üçün 2300 kvadrat metr isti şitillik salınmışdır. Tütün əkiləcək sahələr şumlanmışdır.

2017-ci ilin ötən dövründə dövlət meşə fondu torpaqlarının 43,4 ha ərazisində meşə massivləri və meyvə bağları salınmışdır ki, bunun da 27 hektarını fındıq, 12,8 hektarını şabalıd, 1 hektarını qoz və 2,6 hektarını alma bağları təşkil edir.

Hazırda kənd təsərrüfatı işlərinin aparılması üçün rayonda 72 ədəd taxılyığan kombayn, 29 ədəd tırtıllı və 420 ədəd təkərli traktor, 24 ədəd buldozer, 44 ədəd ekskovator və s. kənd təsərrüfatı texnikası mövcuddur. Kənd təsərrüfatı texnikası parkı daim yenilənir. Əminliklə demək olar ki, cari ilin məhsul toplanışında rayonumuzda texnika çatışmamazlığı hiss olunmayacaqdır.

Rüb ərzində rayonda iri buynuzlu mal-qaranın sayı 46452 baş, o cümlədən inək və camışlar 23621 baş, qoyun və keçilər 194155 baş, donuzlar 1087 baş, quşların sayı isə 320165 baş olmuşdur. Cari ilin 3 ayında rayonda 1336 ton (diri çəkidə) ət, 7935 ton süd, 3134 min ədəd yumurta istehsal edilmişdir.

Rayonumuzda 2 müasir heyvandarlıq kompleksi və 2 ədəd kiçik həcimli heyvandarlıq təsərrüfatı fəaliyyət göstərir. Həmin təsərrüfatlar əhalinin ət və süd məhsullarına olan tələbatının ödənməsində mühüm əhəmiyyətə malikdir.

Mal-qaranın cins tərkibinin, eləcə də damazlıq keyfiyyətlərinin yaxşılaşdırılması istiqamətində də xeyli iş görülmüşdür. Rüb ərzində süni mayalama mütəxəssisləri tərəfindən 1308 baş inək və düyədə süni mayalama aparılmış və süni mayalanmış heyvanlardan 510 baş yüksək genetik potensiala malik birinci nəsil buzovlar alınmışdır. Oktyabr ayından etibarən süni mayalama yolu ilə alınmış hər bir baş buzova subsidiya verilmişdir. Bu iş mütəmadi olaraq hər ay davam etdirilir. Ona görə də heyvan sahibləri heyvanların mayalandırılmasında süni mayalamaya üstünlük verirlər. Nəticədə mal-qaranın cins tərkibi tədricən yaxşılaşır.

Heyvanların yoluxucu xəstəliklərə tutulmaması üçün vaxtaşırı lazımi müayinə və profilaktika işləri aparılır. Hazırda rayonda epizootik durum sabitdir.

Qəbələ Qızılbalıqyetişdirmə Zavodunda cari ilin birinci rübündə ana balıqlardan kürü alınmış və körpə balıqların yetişdirilməsi təşkil olunmuşdur. Bundan əlavə balıqların yemləndirilməsi üçün zavod tərəfindən bu il lazım olan dənli bitkilərin əkilməsi nəzərdə tutulmuşdur.

Respublikamızın iqtisadiyyatındakı irəliləyişlər, aqrar sahəyə dövlət qayğısının daim artması, bu sahədə görülən işlər bizə deməyə əsas verir ki, rayonumuzun aqrar sektoru yüksək templərlə inkişaf edəcəkdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

2017-ci ildə informasiya texnologiyalarından istifadənin genişləndirilməsi də diqqət mərkəzində saxlanılmışdır. Rayon icra hakimiyyətində müasir informasiya texnologiyalarından istifadə olunmaqla vətəndaşların müraciətlərinə baxılması təmin edilmişdir.

Cari ilin birinci rübü ərzində icra hakimiyyətinə ümumilikdə 193 ərizə—o cümlədən 88 ərizə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından, 5 ərizə Milli Məclisdən, 4 ərizə Nazirlər Kabinetindən, 16 ərizə mərkəzi icra hakimiyyəti orqanlarından, 80 ərizə isə vətəndaşlardan birbaşa daxil olmuşdur.

Vətəndaşlar tərəfindən göndərilən ərizələr əsasən mənzillə təmin olunma, müalicəyə göndərilmə, ünvanlı dövlət sosial yardımın təyin edilməsi, birdəfəlik maddi yardımın verilməsi, işə düzəlmə və s. barədə olmuşdur.

Daxil olan ərizələr ətraflı öyrənilərək hər birinə qanunvericilikdə nəzərdə tutulmuş qaydada cavablar verilmişdir.

(Ardı 5-ci səhifədə).